Mərasimdə təhsil naziri Misir Mərdanov, ABŞ-ın Harvard Universitetinin beynəlxalq layihələr üzrə prezidenti, professor Farhud Kaffi, Kaliforniya Universitetinin professoru, doktor Tamar Endryus və digər rəsmi şəxslər iştirak etmişlər.

Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev yeni təhsil ili ərəfəsində daha iki məktəbin əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verildiyini bildirərək, rayon təhsil müəssisələrinin yüksək nəticələr əldə etdiyini vurğulamışdır.

Təhsil naziri Misir Mərdanov ölkəmizdə təhsilin inkişafına dövlətin diqqət və qayğısının nəticəsi olaraq 160-dan çox yeni məktəbin inşa edildiyini, bir çox təhsil müəssisələrində əsaslı təmir və yenidənqurma işlərinin aparıldığını qeyd etmişdir.

Bakı Modern Məktəbinin də paytaxtın təhsil sistemində özünəməxsus yer tutacağına əminliyini bildirən nazir, müəssisənin şagird və müəllim kollektivinə yeni dərs ilində uğurlar arzulamışdır.

Məktəbin direktoru Gülnarə Əfəndiyevanın verdiyi məlumata görə, məktəbdə 1-10-cu siniflərə 305 şagird qəbul edilmişdir. Azərbaycan və rus bölmələri ilə yanaşı, 1-ci siniflər üçün ingilis bölməsi də açılmışdır.

Təhsil metodlarının ənənəvi deyil, fəal təlim metodlarına uyğun qurulacağı müəssisədə ingilis dilinin tədrisinə ayrılan saatların sayı həftə ərzində 5-ə çatacaqdır. Həmçinin informatika fənninin həftədə 3 saat tədrisi nəzərdə tutulur.

Burada tədris Harvard Universitetinin proqramlarına əsasən təşkil olunacaqdır. Dərsdən sonra şagirdlərin rəsm, musiqi, rəqs, üzgüçülük dərnəklərində məşğul olması üçün hərtərəfli şərait vardır. Bakı Modern Məktəbində 8-ci sinifdən etibarən şagirdlərin sürücülük kurslarında iştirakı da planlaşdırılır ki, bu məqsədlə xüsusi otaq yaradılmışdır. Qiymətləndirmənin 50 ballıq cədvəllə aparılacağı məktəbdə hər bir şagirdin inkişaf kartı vasitəsilə fənlər üzrə əldə etdiyi nəticələri izləmək mümkün olacaqdır.

***AzərTAc***